# Heç kəs unudulmur, heç nə yaddan çıxmır

## Barelyefin açılışı

26 yaşlı şəhid hərbi həkim, baş leytenant Ənvərli Aqşin Faiq oğlunun xatirəsinin əbədiləşdirilməsi üçün hazırlanmış barelyefin açılış tədbiri olmuşdur. Tədbirdə rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatların və ictimaiyyətin nümayəndələri, şəhidin təhsil aldığı məktəbin kollektivi və ailə üzvləri iştirak etmişlər. Çıxış edənlər Aqşin Ənvərlinin həyat yolundan danışmış, vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əbədi ehtirama layiq olduqlarını qeyd etmişlər. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**



## İyun - doğum tarixli şəhidlər

Tariximizi yenidən yazan övladlardır şəhidlər - canı-qanı bahasına! Vətən onlara oğul dedi, onlarsa bu vətənin qayasında məmır olub bitdilər! Günəşin şəfəqləri tək göy qübbəsinə çəkildilər ru-



Şəhid Ruslan İdrisov (18 iyun)



Şəhid Sahil Şirinov (22 iyun)



Şəhid Azər Musazadə (25 iyun)

hən. Cismən torpağı canlarıyla, qanlarıyla suladılar və zəfər çağımızı bərpa etdilər. Ona görə də onlar həmişə yaşayır və hər bir vətənsevərin qəlbində əbədi yaşayacaq.



## Ağ rəngin sehri göyərçin

Ağ rəng göz oxşayır həmişə. Ağ rəng bu dünyayla o biri dünyanın həyat rəngi... gün işığının rəngini ifadə edərkən də ağ rəng deyirik; "Süd kimidir, səhər açılır..." Ağ paltarda gəlin köçər qızlar, bəylər ağ köynək geyər.

İnsanların həyatının sağlamlığı keşiyində dayanan-həyatlarına həyat qatan bir peşə sahibləri- həkimlər ta qədimdən ağ xalatı peşələrinin rəmzi kimi qəbul etmişlər. Bu rəmzi müqəddəslik rəngi kimi qəbul edən peşəkarlar insanların sağlamlığını bərpa edərək onları həyata qaytaranlardır.

Belə bir peşəni seçmişdi Aqşin, qəlbi arzular dolu ağ rəngin işığıyla həyat yoluna davam etmək istəyirdi. Fəqət...fələk imkan vermədi... Yolun başlanğıcında ağ rəngin ona olan sevgisi onu aldı... apardı... Allahın dərgahına. Axı əfsuslar olsun ki, ölüm də ağ rəngin vurğunudur.

Peşə bayramı idi onun da! Sevə-sevə fəaliyyətinə başladığı həkim, səhiyyə işçisi günü! 2 ildir onsuz davam edən Aqşinli həyatın peşə bayramı. İnsan titulunun ən pik nöqtəsi sayılan şəhidliyə qovuşan Aqşin Ənvərli 44 günlük Vətən müharibəsində sözün əsl mənasında qəhrəmancasına həlak olmuşdu. Neçə-neçə insanı-vətənpərvər igidi ölümün pəncəsindən qurtarmışdı. Ağır yaralanmasına rəğmən döyüşçüyə ilk tibbi yardımı göstərərək təcili onu yüksəklikdən aşağıdakı təcili yardıma göndərilməsini zəruri bilmiş: - "Mən dözərəm", - demişdi. Son nəfəsində belə həyat qurtarmışdı Aqşin!...

Onun qəhrəmanlıq dolu günləri olmuşdu cəbhə bölgəsində yaşadığı hər gün...

Səhiyyə işçilərinin peşə bayramı günündə yaşadığı binaya vurulan barelyef də təsadüfi deyildi. Bu Qəbələ rayon əhalisinin sevgisinin simvolu idi. Qəbələmizin Aqşin sevərləri baralyefin açılışında daha bir sürprizlə qarşılaşdılar. Bəzən sürprizlər həyat anlamının canlı ifadəçisinə çevrilirlər. Bax, elə həmin gün 3 göyərçindən ikisinin uçması, birinin isə Aqşinin şəkli və tanıtımı - adı, soyadı qeyd olunmuş Barelyefin üzərinə qonaraq dayanması tədbir iştirakçılarını mütəəssir etmişdi. Bəlkə də, bu da bir təsadüf idi. Amma təsadüflər belə həyatın varlığından doğur və bu inancı təcəssüm etdirir.

Fikrimcə, o tək göyərçin şəhid Aqşinimizin nakam sevgisi idi... Arzular simvolu idi. Sevdiyi insanın milli mentalitetə uyğunlaşması idi ki, göyərçin cildində onu tək qoymadığını ifadə edirdi...

Bəlkə də, bu göyərçin şəhidlərin arzu yelkənindən ayrılaraq Aqşin sevgisinin şahidi olmaq istəyən qəhrəmanımız idi!?! Bəlkə də çox sevdiyi anasını, atasını, bacı-qardaşını, müəllimlərini... onu sevənləri görmək istəyinin simvolu idi?!! Cənnət quşudur göyərçin, sülh quşudur! Ağ göyərçin ağ xalatlıların peşəsinin rəmzidir axı. Bəlkə də peşə bayramı təbriki idi o göyərçinin öz dostlarından ayrılaraq təklənməsi...

Bu bəlkələr tədbir günü hər kəsin qəlbində müxtəlif təəssüratlar yaratdı və sanki Aqşin sülh rəmzi göyərçin timsalında hər kəsin göz yaddaşında təkrar yaşadı.

Sən hər kəsin qəlbində əbədi yaşayırsan, Aqşin! Və tarix varkən nəsilbənəsil qəhrəman gənc həkim kimi də yaşayacaqsan!

**BİBİXANIM.**

## Şəhidin xatirə kompleksi

İyunun 22-də 2016-cı ilin Aprel döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəl-





miş Bum qəsəbə sakini, leytenant Şirinov Sahil Həsrət oğlunun doğum günüdür. Qəbələ rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhidin təhsil aldığı məktəbin kollektivi, ictimaiyyət nümayəndələri, ailə üzvləri Sahil Şirinovun məzarını və şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə Bum



qəsəbəsində ucaldılmış xatirə kompleksini ziyarət edərək, üzərinə gül dəstələri qoymuşlar. Tədbirdə çıxış edənlər və şəhidin ailə üzvləri dövlət tərəfindən şəhid ailələrinə göstərilən qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## Şəhid ailələri ziyarət edilmişdir



Şəhid Aqşin Qədirzadə.



Şəhid Aydın Bayramov.

Rayon icra hakimiyyətinin əməkdaşları tərəfindən Vətən müharibəsi şə-



Şəhid Ruslan İdrisov.



Şəhid Adəm Heydərov.

hidləri-Səmədli Vüqar Vaqif oğlunun, Qədirzadə Aqşin Elman oğlunun, Bayramov Aydın Mətləb oğlunun, Heydərov Adəm İkram oğlunun ailələri rayon icra hakimiyyətinin əməkdaşları tərəfindən ziyarət edilmişdir. Şəhid ailələri şəhid ailələrinə göstərilən dövlət dəstəyinə, diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmişlər.